# Hacıqabulda "Konstitusiya və Suverenlik İli" çərçivəsində maarifləndirici tədbir keçirilib

**Hacıqabulda "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Qalib dövlət: Azərbaycançılıq, dövlətçilik, xalqın birliyi və suverenlik" adlı maarifləndirici tədbir keçirilib.**

Rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının birgə keçirdiyi tədbirdə çıxış edən natiqlər bildirmişlər ki, bəşəriyyətin çoxəsrlik tarixi təcrübəsi göstərir ki, xalqların və dövlətlərin inkişafında liderlərin rolu əvəzsizdir. Güclü lideri olan dövlətlər və millətlər çox yüksək inkişaf yolu keçmiş və tarixi uğurlar əldə etmişlər. Belə liderlər bizim xalqın tarixində də yetişmiş, Azərbaycanın inkişafında, dövlətçiliyimizin yaranıb möhkəmlənməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışlar. Onların arasında öz işıqlı əməlləri ilə xalqı müstəqilliyə qovuşdurmuş, dövlətçiliyimizin daha da möhkəmlənməsində müstəsna xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyevin adı ilk sırada çəkilir. Azərbaycanın tarixi şəxsiyyətlərinin fövqündə yer alan Ulu Öndərin xalqımız qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və azərbaycançılıq məfkurəsinin mövcudluğu üçün xalqımız məhz Ulu Öndər Heydər Əliyevə borcludur.

Qeyd olunmuşdur ki, Heydər Əliyev respublikamıza hələ birinci rəhbərliyi dövründə azərbaycançılıq istiqamətində çox böyük, həm də qətiyyətli addımlar atmışdır. Azərbaycan tarixinin, dilinin, ədəbiyyatının, mədəniyyətinin hərtərəfli və dərindən öyrənilməsi, təbliği, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, milli şüurun dirçəlişi, ümumən bütün sahələrdə azərbaycançılıq amalının möhkəm, etibarlı bazasının formalaşdırılması yönündə həyata keçirilən qətiyyətli tədbirlər məhz onun parlaq dühası, ardıcıl səyləri sayəsində reallaşmışdır. Ümummilli Liderin sayəsində Azərbaycan vətəndaşlarını vahid amal, ideya və məqsəd ətrafında birləşdirəcək milli ideologiyanın yaradılması dövlət siyasəti səviyyəsinə qaldırılmışdır. Təsadüfi deyil ki, bu gün siyasi baxışından, harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar ümummilli məsələlərdə Prezident İlham Əliyevin qətiyyətli mövqeyini dəstəkləyərək həmrəylik nümayiş etdirirlər. Çünki insanı öz dövləti ilə sıx bağlayan vətənpərvərlik ideyası dövlət müstəqilliyinin sütununu təşkil edir. Öz xalqının əldə etdiyi suverenliyi, dövlətinin müstəqilliyini qorumaq vətənpərvər insanın ali məramıdır. Ulu Öndər çıxışlarının birində bildirmişdir: "Müstəqilliyi elan etmək hər bir xalq üçün, hər bir ölkə üçün tarixi hadisədir, böyük xoşbəxtlikdir. Amma müstəqilliyi yaşatmaq və onu dönməz etmək, sarsılmaz etmək bundan da böyük vəzifədir, bundan da çətin vəzifədir, bundan da böyük xoşbəxtlikdir. Mən bu gün iftixar hissi ilə bəyan edirəm ki, Azərbaycanda müstəqil dövlət yaşayır və onun gələcəyi üçün də böyük bir təməl qoyulubdur. Bizim vəzifəmiz qarşıdakı dövrdə Azərbaycanın müstəqilliyini qoruyub saxlamaqdır".

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 24 avqust (№178).- S.8.